**PLATON**

# SOKRATIN APOLOGİYASI

## Sokratın məhkəməsi və öldürülməsi ilə bağlı dialoqlar

Tərcüməçi:
Araz Gündüz

qanun nəşriyyatı

ΠΛΑΤΩΝ

# ἈΠΟΛΟΓΙΑ ΣΩΚΡΑΤΟΥΣ

Sokrat ilahidən gələn bir səsin təhriki ilə hərəkət etdiyini deyir və yorulmadan insanlar arasında düzlük, doğruluq, dürüstlük və biliklərə yiyələnmək istiqamətində təbliğat aparırdı. Onun daha bir qəribəliyi bilik öyrənmək üçün yanına gələn şagirdlərindən pul götürməməsi idi. Sokrat birbaşa polemikaya girib savadsız və ədalətsiz olduğunu sübut etdiyi siyasi elitanın qəzəbinə tuş gəlmişdi. Uzun illər boyunca bu mürtəce qüvvələrin təqibləri və qarayaxmaları ilə üzləşsə də, doğru bildiyi yoldan çəkilməmiş, ölüm qorxusu belə onu tutduğu yoldan döndərə bilməmişdi.

E.ə. 469–399-cu illərdə yaşadığı deyilən Sokrat fəlsəfədə etik-əxlaqi kateqoriyaların sistemli şəkildə araşdırılması ilə ilk dəfə məşğul olmasıyla tanınır. Sokratı fərqləndirən bir cəhət də onun şərlənərək edam olunan və ölümdən qaçmaq imkanından yararlanmayıb, onu “könüllü” qəbul edən ilk filosof olmasıdır.

Kitabda Sokratın şagirdi olmuş, antik fəlsəfənin ən görkəmli nümayəndəsi sayılan Platonun Sokratın məhkəməyə çəkilməsi və öldürülməsi ilə bağlı hadisələrdən danışan dörd dialoqu verilib.

**ΠΛΆΤΩΝ ἈΠΟΛΟΓΊΑ ΣΩΚΡΆΤΟΥΣ**
**PLATON SOKRATIN APOLOGİYASI**

Janr: fəlsəfə
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Shifə sayı: 264

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Araz Gündüz
Korrektor: Flora Əliyeva
Mətn dizaynı: Rahilə Şamil
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-311-1

© Qanun Nəşriyyatı, 2017; 2026

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və
hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

# Kitabın içindəkilər

Ön söz yerinə:
Bertran Rassel. Sokrat
6

Evtifron
31

Sokratın apologiyası
64

Kriton
109

Fedon
132

## Ön söz yerinə:

### Bertran Rassel. Sokrat

Sokrat tarixçi üçün öyrənilməsi çox böyük çətinliklər törədən bir obyektdir. Şübhəsiz, bir çox tarixi şəxsiyyətlərlə bağlı bizə olduqca az məlumat bəllidir, bir başqaları haqqında isə çox şey bilirik; Sokrata gəlincə, biz əminliklə deyə bilmirik ki, onun haqqında çox az, ya da olduqca çox şey bilirik. Buna söz yoxdur ki, o, Afina şəhərinin vətəndaşı olmuşdur, yaşaya bilmək üçün azacıq vəsaiti varmış, bütün vaxtını disputlarda keçirərmiş və gənclərə fəlsəfə öyrədərmiş, ancaq öz müasirləri olan sofistlərdən fərqli olaraq, öyrətdiyi adamlardan pul almazmış. Bu da yəqinliklə məlumdur ki, bizim eradan əvvəl 399-cu ildə, Sokratın 70-ə yaxın yaşı olanda onu mühakimə etmiş, ölüm cəzası kəsmiş və öldürmüşlər. Bu da mübahisəsizdir ki, o, Afinada çox tanınmış bir insan olmuşdur, bunu o dövrün yazıçılarından Aristofanın Sokratı karikatura qəhrəmanına çevirdiyi "Buludlar" komediyasını yazmasından bilmək olur. Bu faktdan başqa, Sokratla bağlı olan bütün məlumatlar mübahisəlidir. Sokratın iki şagirdi: Ksenofont və Platon onun haqqında çox yazmışlar, ancaq onların danışdıqları bir-birindən büs-

bütün fərqlənir. Bernetin belə bir maraqlı sözü var ki, hətta onların dedikləri uyğun gələndə bu yalnız Ksenofontun Platonu təkrarlamasına görə belə olur. Onlar fərqli şeylər danışanda isə oxuculardan bəziləri onlardan birinə, digərləri o birinə, üçüncü qisim oxucular isə onların heç birinə inanmırlar. Mən bu təhlükəli mübahisədə onlardan heç birinin tərəfini saxlamağa risk eləmədən yalnız Sokrat haqqında dediklərinin qısa xülasəsini verməklə kifayətlənirəm.



**Ksenofont**

*(bizim eradan əvvəl 430–354-cü illərdə yaşamışdır)*

Ksenofontdan başlayaq. Bəlli olduğu kimi, o, hərbçi idi, çox da böyük intellekt sahibi deyildi və ənənəvi-mühafizəkar baxışlara meyilli olan biri kimi tanınırdı. Sokratı küfr etməkdə və gənclərin tərbiyəsini pozmaqda ittiham etmələri Ksenofontu özündən çıxarır; o bildirir ki, əksinə, Sokrat çox inanclı bir insan idi və onun gənclərə təsiri ol-

duqca xeyirli idi. Ksenofontun təqdimatında Sokratın ideyalarının heç bir dağıdıcılıq gücü duyulmur, onlar çox darıxdırıcı və bayağı görünür. Onun Sokratı müdafiəsi çox uzaqlara gedib çıxsa da, Sokrata qarşı yaranan düşmənçiliyin səbəbini izah etməkdən çox uzaqdır. Burada Barnetin bu sözləri çox yerinə düşür: “Ksenofontun Sokratı müdafiəsi lazım olduğundan da artıq görünür. Sokrat Ksenofontun təsvir elədiyi kimi olsaydı, onu heç vaxt ölümə məhkum etməzdilər”.

Belə bir fikir vardır ki, guya Ksenofontun Sokratla bağlı dediklərinin hamısı doğrudur, çünki onun intellektual səviyyəsi özündən nə isə qoşub deməyə çatmazdı. Belə bir dəlil başdan-ayağa əsassızdır. Axmaq adamın ağıllı bir adamın dedikləri barədə danışdıqları heç vaxt doğru olmur, çünki o, eşitdiklərini düzgün qavramadığından onları qeyri-şüuri olaraq özünün anladığı bir məzmuna salır. Misal üçün, mənim sözlərimi fəlsəfədən başı çıxmayan bir dostumun danışmasındansa, ən qatı düşmənim olan bir filosofun danışmasına üstünlük verərdim. Ona görə də Ksenofont fəlsəfə ilə bağlı hansısa mürəkkəb problemdən söz açanda və ya Sokratın düzgün olmayaraq mühakimə olunması ilə bağlı dəlillər gətirəndə bu dedikləri bizə inandırıcı görünmür.

Buna baxmayaraq, Ksenofontun Sokratla bağlı bir sıra xatirələri yetərincə inandırıcı görünür. Onun dediyinə görə (burada onun sözləri Platonun dediklərinə uyğundur), Sokratı daimi olaraq düşündürən dövlət hakimiyyətinin onu bacaran adamların əlində olması problemi idi. Belə suallar

vermək adəti idi: “Əgər mən ayaqqabılarımı təmir etdirmək istəsəm, kimə müraciət etməliyəm?” Onun bu sualına bir sıra səmimi gənclər belə cavab verirdilər: “Əlbəttə ki, çəkməçiyə, ay Sokrat”. Onun belə bir vərdişi də vardı ki, dülgərlərin, dəmirçilərin və başqa bu kimi sənətkarların yanına gedib soruşardı: “Sizcə, “Dövlət” adlanan gəmini kim təmir etməlidir?” O, Afinada hakimiyyəti ələ almış “Otuzlar” deyilən tiranlarla mübarizəyə qalxanda vaxtilə Sokratın şagirdi olduğu üçün onu yaxşı tanıyan “Otuzlar”ın başçısı Kritiy ona gəncləri öyrətməyi qadağan edib belə demişdi: “Yox, Sokrat, sən gərək bu çəkməçilərdən, dülgərlərdən, dəmirçilərdən danışmaqdan əl çəkəsən, bu adamların adı sənin dilində işlənməkdən sürtülüb cındıra dönüb”. Bu hadisə Peloponnes müharibəsinin sonunda spartalıların Afinada qurduğu qısamüddətli oliqarxiya hakimiyyəti dövründə olmuşdu. Ancaq Afinada, əsasən, demokratik hakimiyyət hökm sürürdü, hətta sərkərdələri də püşkatma yolu ilə seçirdilər. Günlərin birində Sokrat sərkərdə olmaq istəyən bir gənclə görüşür və onu hərb sənətini dərindən öyrənməli olduğuna inandırır. Onun məsləhətinə qulaq asan gənc müəllim yanına gedib hərbi taktikanı öyrənmək üçün kiçik bir kurs keçir. Yenidən Sokratın yanına qayıdanda o, gənci zarafatla tərifləyib, əslində, heç nə öyrənmədiyini başa salır və yenidən hərb sənətini dərindən öyrənməyə göndərir. Sokrat başqa bir gənclə uzun-uzadı danışıb, onu maliyyə məsələlərini öyrənməyə məcbur edir. O bu planını bir çox başqa insanların, o sıradan Afina dövlətinin seçilmiş dövlət başçıları olan strateqlərin üzərində də həyata

keçirməyə çalışırdı; ancaq afinalılar belə bir qərara gəldilər ki, Sokratın onları qınayıb, uzaqlaşdırmaq istədiyi yamanlıqlardan əl çəkməkdənsə, sikuta (zəhərli otdan düzəldilən içki) içirib ondan yaxalarını qurtarsalar, daha yaxşıdır.

Sokratın Platon tərəfindən təsviri Ksenofontun təsvirindən fərqlənən, tamamilə başqa bir növ çətinlik yaradır; burada Platonun təsvir etdiyi Sokratın nə dərəcədə tarixi şəxsiyyət, hansı dərəcədə Platonun bu dialoqlarında öz düşüncələrini vermək üçün yararlandığı və öz təxəyyülünün məhsulu olan "Sokrat" olduğunu ayırd eləmək çox çətindir. Platon təkcə filosof deyildi, həm də güclü təxəyyülü və cazibəli təhkiyəsi olan istedadlı bir yazıçı idi. Heç kim belə düşünmür və Platonun özü də bu iddiada deyil ki, onun dialoqlarında danışılanlar baş verənlərin dəqiq təsviridir. Bununla yanaşı olaraq, onun çox ilkin dialoqlarında danışıqların gedişi çox təbiidir və iştirakçıların xarakteri də çox inandırıcı görünür. Məhz Platonun çox gözəl yazıçı olması onun tarixçiliyinin üzərinə ciddi şübhə kölgəsi salır. Onun təsvir etdiyi Sokrat çox ardıcıl və maraqlı xarakteri olan birisidir, belə bir obrazı yaratmaq hər kəsin bacaracağı bir iş deyil; ancaq mənə elə gəlir ki, Platon təsvir etdiyi Sokratı öz düşüncəsinin gücüylə yarada bilərdi. Onun bunu edib-etməməsi isə tamamilə başqa bir mövzudur.